# Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) on rükət öyrəndim

İbn Ömər (Allah onların hər ikisindən) razı olsun dedi: "Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) on rükət öyrəndim: Zöhrdən öncə və sonra iki rükət, məğribdən sonra evində iki rükət, işa namazından sonra evində iki rükət və sübh namazından əvvəl iki rükət. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına daxil olmaq mümkün olmayan müəyyən bir vaxt var idi. Hafsa mənə dedi ki, müəzzin azan verdikdə, sübh vaxtı Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) iki rükət namaz qılardı. Başqa rəvayətdə: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cümə namazından sonra iki rükət namaz qılardı."
[Səhih] [Bütün rəvayətləri müttəfəqun aleyhidir]

Abdullah ibn Ömər (Allah onlardan razı olsun) izah edir ki, Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) öyrəndiyi on rükət nafilə namaz vardır ki, bunlara ratibə sünnətləri deyilir. Günorta namazından əvvəl iki rükət, ondan sonra iki rükət. Axşam namazından sonra evində iki rükət. İşa namazından sonra evində iki rükət. Fəcrdən öncə iki rükət. On rükət tamamlandı. Cümə namazından sonra isə iki rükət qılır.

https://sunnah.global/hadeeth/az/show/3062